# Şuşa şəhəri ilə tanışlıq

Qarabağa səfər edən dünyanın 30 ölkəsindən gələn səyyahlar Füzulidən sonra Azərbaycanın tarixi və mədəniyyət mərkəzlərindən olan Şuşa şəhərinə gəliblər. Onlar Şuşanın əsrarəngiz təbiəti, tarixi yerləri və burada həyata keçirilən quruculuq işləri ilə tanış olublar.






AZƏRTAC xəbər verir ki, səyyahların Şuşa şəhəri ilə tanışlığı Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin güllələnmiş heykəlləri olan mərkəzi meydanla başlayıb. Qonaqlara Şuşa şəhəri, işğal dövründəki vəziyyəti və burada həyata keçirilən yenidənqurma işləri barədə məlumat verilib. Bildirilib ki, 30 ilə yaxın işğal dövründə Şuşa şəhərindəki tarixi binalar, məscidlər, abidələr erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra burada genişmiqyaslı bərpa-quruculuq işlərinə start verilib. İnfrastrukturun qurulması ilə yanaşı, Şuşada şəhərin əsl tarixi simasının, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılıb.



Səyahətçilər Xurşidbanu Natəvanın evi, Xan qızı bulağı olan ərazi, qala divarları və Yuxarı Gövhər ağa məscidi ilə tanış olublar. Sonda Cıdır düzünə gələn səyyahlar buradan açılan əsrarəngiz mənzərəni seyr edib, sonra Xankəndiyə yola düşüblər.

Heyət 3 gün ərzində Qarabağ və Şərqi Zəngəzurda olacaq, aparılan nəhəng bərpa və quruculuq işlərini, minatəmizləmə fəaliyyətini, Ermənistan tərəfindən işğal dövründə törədilmiş vəhşilikləri, dağıntıları müşahidə edəcək. Bu səfər azad edilmiş ərazilərin "black tourism" çərçivəsində tanıdılmasında müstəsna rol oynayır.

Azərbaycan.- 2025.- 25 aprel (№82).- S.8.